CÜMHURİYƏT
14
26 sentyabr - 3 oktyabr 2025-ci il

# Məhəmməd Füzuli folklor aynasında

## *Dahi şairin poeziyasında xalq hikmətinin izləri*

**İstənilən böyük sənətkar özündən öncə yaradılmışlara müraciət edir, onu dolğunlaşdırır və xalqa təqdim edir. Böyük Məhəmməd Füzuli də keçmişdən gələn hikməti əsərlərində əks etdirib, onu gələcəyə əmanət buraxıb. AMEA-nın Folklor İnstitunun nəşr etdiyi " Məhəmməd Füzuli və Şərq folkloru" kitabı dahi şairin yaradıcılığının folklor qaynaqlarını araşdırır. Kitab müxtəlif alimlərin məqalələri fonunda bu elmi məsələyə işıq salır. Kitabda xeyli elmi məqalələr toplanıb. Məqalələrin əksəriyyətində dahi şairə folklor zəminində yeni münasibət ifadə olunur. Filologiya elmlər doktoru Ataəmi Mirzəyevin "Füzuli yaradıcılığında folklor nümunələrindən istifadənin təzahür formaları" məqaləsində əsasında şairin lirikasındakı atalar sözləri tədqiqə cəlb olunur.**




A.Mirzəyev M.Füzuli yaradıcılığında atalar sözlərinin, idiomatik ifadələrin onun yaradıcılığının alt qatlarında olmasına xüsusi diqqət ayırır. Lakin bununla yanaşı, şairin xalq hikmətinə yaxınlığı bu məqalədə aşkara çıxarılır.

**Professor şairin**
***Hər dərdsizdən umma, Füzuli, dəvayi dərd***
***Səbr eylə, kim ki, dərd veribdir, dəva verər***

beytlərinə diqqəti cəlb edərək "Dərd verən dərmanını verər" atalar sözünü xatırladır. Kədər şairi olan Füzulinin dərddən bəhs edərkən qədim ifadələrə varmasından təbii nəsə ola bilməzdi . Və yaxud eşq mövzusunda "Tikansız gül olmaz" deyiminin sənətkar tərəfindən necə yerində işləndiyi təhlil edilir. Hikmətli kəlamların məhəbbət poeziyasına necə yaraşıq verdiyi oxucuların diqqətinə çatdırılır.

Filologiya elmləri doktoru, dosent Ağaverdi Xəlilin "Füzuli yaradıcılığının folklor qaynaqları" yazısı əvvəlcə müxtəlif tədqiqatçıların fikirləri ilə dolu olsa da, müəllif sonradan öz mövzusuna əhatəli giriş edə bilir. Müəllif M. Füzulinin folklordan ictimai məzmunlu "Şikayətnamə" əsərində ustalıqla istifadəsindən bəhs edir. A.Xəlil "Şikayətnamə" də işlənən məşhur "Salam verdim, rüşvət deyil deyə almadılar" sözlərinin mənşəyinə gedir. Dosent bu baxımdan Mahmud Kaşqarlının "Divani-Lüğəti Türk" əsərinə müraciət edir. Hər iki əsərin müqayisəsində əski türk dilindəki ürünc anlayışının ərəblərlə üz-üzə gəldikdən sonra rüşvətə çevrilməsini diqqətə çatdırır. Yazıda, həmçinin "Leyli və Məcnun" əsərində bayatıların ciddi təsiri inandırıcı şəkildə ortaya qoyulur. Ümumən bu yazı M.Füzulinin Azərbaycan türklərinin yaddaşına bağlılığını dəlillərlə ortaya qoyur.

Filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmudun yazısında isə böyük sənətkarın tək folklora bağlılığı deyil, tarixə necə təsir etməsi araşdırılır. A. Mahmud yazısında sələf-xələf münasibətlərinin xalq yaddaşına necə təsir etdiyini araşdırır, dəqiq elmi qənaətlərini bölüşür. A.Mahmud Füzulidən sonrakı iki əsri ədəbiyyatımızın sırf onun orbitində olduğunu yazır. 19-cu əsrdən etibarən isə M.Füzulidən təsirlənən şairlərimizin artıq onunla həmmüəllif olduğunu qeyd edir. Məhz bu dövrdən etibarən M. Füzulinin özünün xalq yaddaşına köçdüyünü araşdırılır. Müəllif yazısında M. Füzulinin sirli bir dolanbac yox, gerçək bir poeziya sərkərdəsi olduğunu elmi dəlilərlə sübut edib.

Dosent Gülsümxanım Hasilova isə M. Füzuli irsini Əzizə Cəfərzadə tədqiqatları işığında araşdırıb. Dəyərli tarixi romanların müəllifi olmaqla yanaşı, folklorşünas Ə. Cəfərzadənin ilk dəfə olaraq M. Füzulinin folklora təsiri probleminə toxunması araşdırılır. Yazıda M. Füzulinin "Qanlını qan tutar", "İldə bir Novruz olur" kimi xalq yaddaşından gələn ifadələri yenidən diriltməsi diqqət mərkəzinə gətirilir. Həmçinin dahi şairin

**Füzuli dərd əlindən dağa çıxdı**
**Dedilər, bəxtəvər yaylağa çıxdı**

misralarının xalq dilinə gəlməsinin və atalar sözü səviyyəsinə yüksəlməsinin Ə. Cəfərzadənin əməyi nəticəsində məlum olması faktı qabardılır.

Filologiya elmlər doktoru İslam Sadıqın "M. Füzuli poeziyasında Şumer motivləri" məqaləsi isə kitabda özəl yeri olan tədqiqatlardan sayıla bilər. İ. Sadıq yazının əvvəlində ortaya bir məsələ qoyur. Bu, Füzulinin Şumer mətnləriylə tanışlığıdır.- Tədqiqatçı haqlı yerə bildirir ki, dahi şair bu mətnlərdən xəbərdar ola bilməzdi. Çünki o dövrlərdə Şumer mətnləri hələ aşkarlanmamışdı. İ. Sadıq M. Füzulinin şifahi və qan yaddaşından yararlanaraq şumerlərə gedib çıxdığı qənaətini meydana qoyur. Müəllif dirilik suyu əfsanəsinin M.Füzuli yaradıcılığında mühüm yer tutduğunu faktlarla sübuta yetirir. Daha önəmli məqam "Leyli və Məcnun" ilə "Kitabi-Dədə Qorqud" arasındakı bağın aşkarlanmasındadır. İ.Sadıq Məcnunu Basatla müqayisə edərək onun vəhşi heyvanlarla dostluğunun Dədə Qorqud motivlərindən gəldiyini yazır.

Kitabda, həmçinin Füzuli Bayat, Afaq Xürrəmqızı, Fatimə Bağırova, Bakir Albalıyev və digər alimlərin Füzulinin xalq hikmətiylə olan münasibətini araşdırıb aşkarlayan məqalələr də toplanıb. Ümumən Füzuli və Şərq folkloru mövzusunda toplanan bu yazıların humanitar fikrimizin inkişafında rol oynayacağı şübhəsizdir. Bu mövzuda ictimai-elmi müzakirələrin daha da yayğınlaşması məqsədəuyğun olardı.

**Ceyhun MİRZƏLİ**